**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Şükürov Qasım Adəm oğlu, Əhədov Fuad Abbas oğlu və digərləri Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 159 və 162 saylı müraciəti üzrə**

**R Ə Y İ**

**Bakı şəhəri** **27 dekabr 2009-cu il**

**Saat 12:00**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar İmişli rayonu, Yalavac kənd sakini Şükürov Qasım Adəm oğlu və Mirişov Mirnaib Mahmud oğlu, habelə həmin rayonun Bəhramtəpə qəsəbəsinin sakini Əhədov Fuad Abbas oğlu və digərləri 2009-cu il dekabr 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, 80 saylı İmişli-Beyləqan seçki dairəsi üzrə 8, 9, 10 və 11 saylı seçki məntəqələrində səsvermənin nəticələri rəsmiləşdirilərkən bəzi qanun pozuntularının baş verdiyini bildirmiş və müvafiq tədbir görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən və araşdırma nəticəsində müəyyən olunmuşdur ki, dairə seçki komissiyası məntəqə seçki komissiyalarının səsvermənin nəticələrinə dair protokollarındakı məlumatları ümumiləşdirərək bələdiyyə üzrə DSK protokollarını seçki qanunvericiliyinin tələblərinə müvafiq olaraq tərtib edilmişdir. Şikayətçilərin iddia edilən halları sübuta yetirilmədiyindən və öz təsdiqini tapmadığından müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7-ci bəndlərinə əsasən **r ə y ə  g ə l d i m :**

1. Vətəndaş Şükürov Qasım Adəm oğlu, Mirişov Mirnaib Mahmud oğlu, Əhədov Fuad Abbas oğlu və digərlərinin Azərbaycan Respublikası Mərkəzi Seçki Komisiyyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixində 159 və 162 saylı müraciətləri əsassız olduğundan təmin edilməsin.

2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü V.Kazımova